Qasımlı Vüsal
Korrupsiya: Sosial rifahın düşməni
«Yeni Müsavat» qəzeti № 201 (2128) 29.07.2003

Korrupsiyanın sosial nəticələri barədə fikir yürütmək üçün «Beynəlxalq şəffaflıq» təşkilatının dünya ölkələri üzrə hazırladığı reytinqə baxmaq kifayətdir. Bu reytində ölkələrin korrupsiya uğrama dərəcəsinin ətrafına uyğun olaraq adambaşına paritet indeksi əsasında ğəlirlərin azalmasını müşahidə etmək olar. Bir sözlə, korrupsiya sosial rifahla tərs mütənasib anlayışdı. Dünyada ən az korrupsiyaya uğramış Skandinaviya ölkələrində «sosializm» qurulduğu halda, astronomik korrupsiyalaşma səviyyəsilə seçilən Afrika ölkələrində sözün əsl mənasında aclıq hököm sürür. Bu halda hətta təbiətin səhavət boxçasının ağzını Skandinaviyaya nisbətən Afrikaya daha iri radiusla açması öz əhəmiyyətini itirib. Təbii sərvət faktoru belə korrupsiyayla sosial rifah arasındakı tərs funksional asılılığı poza bilmir. Korrupsiya, təbii sərvət və sosial rifah üçbucağının təpə nöqtələrinin Azərbaycanda özünü necə aparmasını araşdırmağa qərar verdik. Korrupsiyanın sosial rifahın bütün parametrləri üzrə təsirini müəyyənləşdirmək bir yazının çərçivəsində mümkün olmasada da, kommunal xidmətlər sahəsində korrupsiya mənşəli fəsadları araşdırmağa cəhd göstərəcəyik.

Neftin mayası – korrupsiya yuvası

BVF-nin hesablaşmasına və rəsmi Bakının təsdiqlədiyinə görə, Azərbaycanın yanacaq-enerji sektorunda «qizli subsidiya»nın miqyası ağlagəlməzdir: dövlət büdcəsindən 1,5 dəfə çox, başqa sözlə 7,2 trilyon manat. «Gizli subsidiya»ların başlıca mənbəyi ARDNŞ-nin «Azərenerji» və «Azəriqaz»a, sonuncuların isə istehlakçılara satdığı enerjidaşıyıcılarının pulunun ödənilməsidir. «Gizli subsidiya»laşmanın hər mərhələsində mümkün korrupsiya imkanlarını nəzərdən keçirək. Hər şey neftin maya dəyərlərindən başlayır. Nər bareli 5-6 dollara başa gəlməsi deyilən ARDNŞ neftinin niyə bu qədər baha olması izahsızdır. Dünya təcrübəsində neft şirkətləri çıxardıqları hər barel neft gəlirinin ortalama 40 faizini büdcə ödəmələrinə yönəltdikləri halda, ARDNŞ üzrə bu göstəricinin 10-15 faizi aşmamasını sübut etmək üçün hasil olunan 9 millyon tona yaxın xam neftin dəyərində şirkətin büdcə qarşısındakı cəmi 340 milyon dollar (bundan ARDNŞ-dəki qaz hasilatı, neft emalı və digər sahələr üzrə büdcə ödənişlərini çıxmaq lazımdır-V.Q.) faktiki ödənişinin xüsusi çəkisini tapmaq yetərlidir. Eyni normativi ARDNŞ-yə tətbiq etməli olsaq (analoğiya düsturu olsa da, təqribi təsəvvür üçün yetərlidir – V.Q.), gərək bizim «pul rezervuarı» olan il büdcəyə 340 milyon deyil, 630 milyon dollar ödəmə həyata keçirəydi. Belə götürəndə ARDNŞ-nin təkcə il büdcədən 290 milyon dollar və ya büdcənin 30 faizi həcmində məbləğ yayındırdığını ehtimal etmək mümkündür.

Kommunal xidmətlərə dalğa təsiri

Dövlət Neft Şirkətində baş verən korrupsiya sonradan zəncirvari olaraq kommunal xidmətlərin qiymətlərinə qədər dalğa təsiri buraxır. Nəticədə ikibaşlı sosial fəsad törənir. Bir tərəfdən tariflər bahalaşır, digər tərəfdən isə korrupsiya nəticəsində büdcəyə ödənilməli olan büdcədən də əhalinin maaş, müavinət və persiya şəklində ala biləcəyi vəsaitlər mənimsənilir. Müqayisə üçün deyək ki, kommunal xidmətlərə görə güzəştlərin əvəzinə əhalinin aztəminatlı təbəqəsinə verilən kompensasiyalar cəmi 100 milyon dollar təşkil edirdi. Hansı ki, təkcə Neft Şirkətində bir ildə büdcədən yayındırılan vəsait bundan 2,9 dəfə çoxdur.

2002-ci il dövlət büdcəsinin təsdiq edilməsi haqqında prezident fərmanına əsasən Nazirlər Kabineti «Azərenerji» SC, «Azəriqaz» SC, ARDNŞ və dövlət büdcəsi

arasında 495 milyard manat məbləğində qarşılıqlı əvəzləşdirmə aparılması barədə qərar çıxarıb. İndiyədək isə ARDNŞ-nin üst-üstə təqribən 322 milyon dollar borcunun əvəzləşdirilməsi və müvafiq olaraq büdcədən silinməsi həyata keçirilib. Əvəzləşdirmə nəticəsində əldə olunan virtual büdcə cəlirlərinin əhalinin sosial rifahı istiqamətində necə istifadə edilməsi maraq doğururö Enerji sektoru üzrə qarşılıqlı əvəzləşdirmələrin son nəticədə korrupsiyaya yol açmasına tam əminik. Belə korrupsiya zəncirinin ilk həlqəsi əhali, digər həlqəsi isə ARDNŞ-dir. Nəticədə isə korrupsiya zəncirinin bütün həlqələri əvəzləşdirmədən udur, təkcə əhalinin borcları silinmir.

Əhali «enerji pripiskası»nın qurbanıdır

Əhaliyə göstərilən kommunal xidmətlər üzrə korrupsiyanın növbəti mərhələsi neft-qazdan elektrik enerjisi alınmasında şəffaflığın təmin edilməsindən keçir. İstər elektrik enerjisinin hər kilovatt/saatı üçün yandırılan mazut (dünya standartlarındakı 150-200 qrama qarşı Azərbaycanda bu göstərici 400-500 qrama «çatdırılıb»), istərsə də qazın sərf normalarının şişirdilməsi təkzibolunmaz faktdır.

Azərbaycanda enerjetik auditlərin aparılması bu sahədə israfçılığın son həddə çatmasıyla nəticələnib. TACİC çərçivəsində aparılan araşdırmalar göstərir ki, Azərbaycan enerjiyə qənaət sahəsində MDB-də axırıncı yeri tutur və Almaniyadan 25 dəfə geri qalır. «Enerji resurslarından istifadə haqqında» qanun tələblərinə uyğun olaraq ölkənin bütün müəssisə və təşkilatlarında, başqa neft və qaz emalı zavodları olmaqla, enerjetik auditlər keçirilməlidir. (Yeri gəlmişkən, özünə iş axtaran yanacaq və Enerjetika Nazirliyinin əsasnaməsində bu məsələlər öz əksini tapıb-V.Q.) Yalnız bu yolla enerjiyə qənaət probleminin həllində əhəmiyyətli rol oynaya biləcək rasional enerji sərfi normaları myəyyən edilə bilər. Korrupsiya enerjinin istehsalı və istifadəsi zamanı xərclərə oturub onu şişirdir, enerji istehlakı zamanı isə əhalinin cibindən əlavə manatlar çıxarır.

Yenə də TACİC çərçivəsində aparılmış araşdırmalar göstərir ki, Azərbaycanda enerjiyə qənaət potensialı istifadə olunan ümumi enerji miqdarının 40 faizi səviyyəsində qiymətləndirilə bilər ki, bu da təxminən ildə 5 milyon ton şərti yanacaq ehtiyatı deməkdir. Dünya təcrübəsi göstərir ki, bu yolla əldə edilmiş enerji yeni enerji istehsalat etməkdən 2-3 dəfə ücüz başa qəlir. Azərbaycanda enerjiyə edilməyən qənaət 60 faiz həddində olan gizli iqtisadiyyatın işıqlandırılması hesabınadır. Lakin korrupsionerlər buradan da yol tapıblar. Ən aşağı tarif (96 manat) əhali üçün olduğundan, gizli iqtisadiyyatçıların yandırdıqlarını, işığın pulunu (250 manat) da əhalinin ayağına yazırlar. Məsələn, Gəncədə və ölkənin bir sıra rayonlarında əhalidən ayda 2 «şirvan» işıqpulu yığmaqla onları qismən rahat enerjiylə təchiz edirlər. Hansı ki, Bakıda bütün günü işıq yandıran mənzil bu qədər pul ödəmir. Rəsmi məlumata görə, Bakı və Sumqayıt elektrik şəbəkələri ölkənin qalan ərazisi qədər elektrik enerjisi sərf edir. Halbuki Bakı və Sumqayıt elektrik şəbəkələrinin əhatə etdiyi ərazidə enerjitutumlu iqtisadiyyatın 80 faizdən yuxarısı, əhalinin 2/3-si yaşayır. Belədə Bakı və Sumqayıtdan kənarda yandırılmayan enerjinin pulunun yığılmasından söhbət gedir və elə buna görə də bəzən əhali tərəfindən işıqpulu 2 «şirvan»lıq standart «tarif»lə ödənilir. «Enerji pripiskası əhalinin və dövlət büdcəsinin dövlət hesabına gerçəkləşdirilir.

Kommunal xidmətlərə görə, 600 milyon dollar korrupsiyanın yemidir

İqtisadi inkişaf naziri Fərhad Əliyevin sözlərinə görə, dövlət hər il elektrik enerjisi, təbii qaz və suya görə 700 milyon dollar vəsait xərclənməsinə rəğmən, cəmi 100 milyon dollar yığır. Bu isə enerjinin real və faktiki qiymətləri arasındakı fərq, həmçinin kommunal xidmətlərəgörə haqqın az faizlə yığılması ilə yanaşı, başlıca olaraq korrupsiyanın törətdiyi fəsaddır. Sadalanan kommunal xidmətlərə görə dövlətin cibindən silinən illik 600 milyon dolların böyük bir hissəsi korrupsiyanın yemidir. Hansı

ki, korrupsiyanın yemi olmasaydı elə həmin kommunal xidmətlər üzrə əhalinin sosial rifahının əhəmiyyətli müsbət təsir göstərmək olardı.

Enerji sektorunda «gizli subsidiya»laşdırma iqtisadi islahatların səviyyəsinə görə Azərbaycandan çox=çox irəlidə gedən Şərqi və Mərkəzi Avropa ölkələrində də mövcuddur. Məsələn, Çexiyada bir kilovatt/saat enerji 6 sentə başa gəldiyi halda, yerli istehlakçılara ƏDV-siz 3,2 sentə satılır («Finansial Tayms», 1998-ci il). Avropanın keçid ölkələri üçün 6 sentlik göstəricini enerji təchizatı üçün əməliyyat xərclərini örtənbir hədd kimi qəbul etsək, onda bu səviyyədə yalnız Polşa və Estoniyanın qərarlaşdığını, Macarıstan, Latviya və Litvanın isə deyilən normativə yaxınlaşdığını müşahidə etmək olar. Qalan digər postsosialist ölkələrində, o gümlədən Azərbaycanda isə əsasən sənaye müəssisələri diferensiallaşmış enerji tarifləri və ödəməmələr nəticəsində ev təsərrüfatlarının enerji təchizatınısubsidiyalaşdırırlar. Lakin daha şəffaf olduğundan hətta enerji ehtiyatı olmayan ölkələrdə belə əhalinin kommunal xidmətlərlə təchizatı səviyyəsi Azərbaycandan daha yaxşıdır.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ekspertləri enerji sektorunun islahatlarının ilk mərhələsində enerjiyə çekilən uzunmüddətli son hədd xərclərinin səviyyəsini Mərkəzi və Şərqi Avropa ölkələri üçün Avropa Birliyinin müvafiq orta göstəricisi həddində, MDB ölkələri üçün isə Şimali Amerikanın orta göstəricisinə uyğun müəyyənləşdirməyə təklif edib. (Axırıncı göstərici təbii qaz və hidroenerqetik resursların zənginliyi nəzərə alınmaqla müəyyənləşib.) AYİB-in yanaşmasına uyğun olaraq Şərqi və Mərkəzi Avropa ölkələrində sənaye müəssisələri üçün enerji tarifləri uzunmüddətli son hədd xərclərinin 50-75 faizi, ev təsərrüfatları üçün isə 15-30 faizi həddindədir. Azərbaycanda bu göstəricilər müəllifin hesablamalarına görə, uyğun olaraq 100 və 80 faizdir. Göründüyü kimi, Azərbaycanda enerji tariflərinin islahatını asanlaşdıran əsas fakt odur ki, ölkənin enerji resurslarının zənginliyi enerjinin uzunmüddətli son hədd xərcləri ilə satış qiymətləri arasında Avropanın keçid ölkələrində olduğu qədər disbalans yaratmayıb. Çünki bizdə enerji daha üçüz başa gəlir. Əvəzində istehlakçıların alıcılıq qabiliyyəti adıkeçən ölkələrə nisbətən aşağıdır. Belə vəziyyət imkan verir ki, ümumilikdə enerjidaşıyıcılarının topdansatış qiymətlərinin artım tempi pərakəndə satış tarifləriylə müqayisədə daha sürətlə olsun. Bu nöqtedən çıxış edərək enerji tariflərinə münasibətdə iki metodoloci yanaşmanı ortaya çıxarmaq olar: birincisi, AYİB-inyanaşmasına müvafiq Şimali Amerikanın standartlarına və ya BVF-nin təklif etdiyi kimi, dünya qiymətlərinə uyğun enerji tarifləri müəyyənləşdirmək, ikincisi isə Azərbaycanda mövcud iqtisadi parametrləri (istehlakçı qrupları üzrə enerjinin son hədd xərclərini, alıcılıq qabiliyyətini və s.) əsas götürüb son hədd xərcləri ilə satış qiymətləri arasında normal mənfəəti də təmin edən balans yaratmaq. Fikrinizcə, istehlakçı qrupları üzrə enerji tarifləri qiyazi optimallaşdırma yoluyla maksimum iqtisadi səmərəli müəyyənləşdirilməlidir. Təəssüf ki, Azərbaycan hökümətiylə BVF arasında danışıqlar heç də enerji sektorundafundamental qiymət islahatı barədə deyil, əsasən həmin qiymətlərin dünya standartlarına məhz hansı müddətə çatdırılması barədə aparılıb. Lakin bu danışıqlarda BVF tərəfindən həmişə prioritetin korrupsiyanın aradan qaldırılmasına baxmayaraq, Azərbaycan hökuməti buna razılaşmayıb.

Enerjidaşıyıcılarının qiymətlərini qaldırmazdan öncə xam neftin maya dəyərindən tutmuş elektrik enerjisinin ümumi məsrəflərinə qədər şəffaflaşdırılmalıdır. Oğurlanan xam neft, mazut, qaz, elektrik enerjisi və s. üzə çıxarılmalıdır. Hazırda korrupsiya çetesinin cibinə axan bu vəsaitlər dövlət büdcəsinin və digər mexanizmlərinin vasitəsiylə əhalinin xeyrinə böyündükdən sonra enerjidaşıyıcılarının pərakəndə qiymətlərinin qaldırılmasına baxıla bilər.

Qaz korrupsiyası və ya korrupsiyanın qazı

«Azəriqaz» Səhmdar Cəmiyyətinin rəhbəri bildirir ki, 1 kub metr qaz Neft Şirkətindən 65 manata alınıb, əhaliyə 35 manata satılır. Nəzərə almalıyıq ki, hazırda Bakıda 450 min abonentin yalnız 40-42 minində, başqa sözlə 9 faizində sayğac quraşdırılıb. Yerlərdə qalan 91 faiz əhaliyə qaz 65 manatdan baha satılır. Ona görə ki, sayğac qoyulmadan mənzillərdə yaşayan ailələr sayğac qoyulan mənzillərdəkindən 2-2,5 dəfə artıq qaz pulu ödəyirlər. Digər tərəfdən, ölkədə istehsal olunan təqribən 5 milyard kub metr qazın yarıdan çoxunun əhaliyə verilməsi barədəki rəsmi açıqlamalara da aydınlıq gətirilməsinə ehtiyaj

vardır. 1990-cı ildə bütün rayonlara qaz veriləndə rəsmi statistikaya görə, əhalinin işlətdiyi qazın həcmi 2,5 milyard kub metr təşkil edirdi, 1994-cü ildən sonra əhaliyə hər il yerilənqazın həcmi orta hesabla götürüldükdə təqribən 1,5 milyard kub metr təşkil edib. Deməli, Rusiyadan qaz alınmasına başlamazdan əvvəl əhalinin istifadəsinə verilən qaz ölkədə hasil olunan təbii qazın 30 faizi səviyyəsində olub. Belə olmasaydı, Bakıdan kənar rayonlar qazsızlıqdan əziyyət çəkməzdi. Bəs onda əhalinin ayağına yazılan əlavə qaz hərə gedir? «Azəriqaz» SC qazın 1 kub metrini sənaye müəssisəsinə və «Azərenerjiyə» 108 manata, kommersi ya qurumlarına isə 240 manata, yəni əhaliyə satdığından müvafiq surətdə 3 və 7 dəfə baha satır. Bəs Azərbaycan İqtisadiyyatının təşkil edən kölgə iqtisadiyyatını təmsil edən qurumlar qazı haradan və neçəyə alır? Bu suallara aydınlıq gətirilsə, onda əhalinin işlətdiyi qazın həqiqi miqdarı da olar.

Korrupsiya əhaliyə 9 milyon dollarlıq əlavə su «içirdir»

Dünya Bankının və Avropa Yenidənqurma və İnkişaf Bankının kreditləri çərçivəsində keçirilən tenderləri udan xarici şirkətlərin gördükləri işlər və su təsərrüfatındakı digər çatışmazlıqlar haqqında əvvəllər çıxış etməmişik. Şübhəsiz ki, 1 milyard dollar investisiya ehtiyacı olan Bakının su təsərrüfatına 100-150 milyon dollar xarici kreditlə tam dəyişiklik etmək mümkün deyil. Bu arada biz Bakının su təminatı sahəsində əhalini ən çox narahat edən su pulunun yığılması və bu vəsaitin hara getməsi barədə araşdırma aparmaq istərdik.

Bakıda su satışının 5 kateqoriya istehlakçı qrupu üzrə qiymətləri müəyyənləşib. Ən ücüz qiymətsə əhaliyə nəzərdə tutulub – aylıq adambaşına 2620 manat. Belə ki, əhaliyə suyun hər kubmetri 185 manata satılır. Bu tarif bir o qədər də baha deyil. Hətta suyun maya dəyəri və bazar qanunları baxımından yanaşsaq, ona üçüz qiymət də demək olar. Biz tarifin sosial ədalət prinsiplərinə uyğun olub-olmamasından şikayətlənmirik.

İş ondadır ki, adambaşına hesablanmış 12 kubmetrlik normativ həddindən artıq şişirdilib. Təsəvvür edin ki, bu, aylıq 12 min litr, gündəlik isə 400 litr su sərfi deməkdir. Təəccüblənməyin, Abşeron Regional Səhmdar Su Cəmiyyətində hesab edirlər ki, gün ərzində hər bakılı 400 litr su istifadə edir! Bu, Azərbaycan şəraitində hesablanmış sanitar normalardan da 100 litr çoxdur. Amma real olaraq nəinki adambaşına, heç hər ailəyə cündəlik 400 litr su verilmir və bunu təsdiqləmək üçün iqtisadçı-filan olmağa ehtiyac yoxdur, sadəcə, Bakıda yaşamaq gərəkdir.

Orta hesabla su sərfi norması 3 dəfə şişirdilib, başqa sözlə, hər bakılıya gündəlik 300 litr əlavə su «içirdirlər». Bakıda rəsmi qeydiyyatda 2 milyon nəfər yaşayır. Bu hesabla sənəd üzərində 600 milyon litr və ya 600 min kubmetr su artıq yazılır. Normativ qiymətlərlə bu, gündəlik 25 min dollar vəsait edir. Aylıq 750 min dollar və illik 9 milyon dollar vəsait artıq su pulu kimi gedir. Ola bilsin bu suyun bir qismi bərbad gündə olan kəmərlərdən axsın. Amma iş ondadır ki, əhalidən su pulu deyilən qaydada yığılır və 9 milyon dollar hara getməsi bilinmir.

Biz razıyıq ki, Bakıda əhaliyə su ucuz satılır. Amma su sərfi normasının hədsiz şişirdilməsi sonda supulunun ucuzluğunu kompensasiya edir. Məsələn, Hövsan

qəsəbəsindən şikayətlənirlər ki, sakinlərə günaşırı 2 saat su verildyi halda adambaşına 12 min litr suyun pulu alınır. Bu mənada əhalinin boynuna minnət qoymağa dəyməz. Su istifadəçilərinin ödədikləri su pulu heç də maya dəyərindən dəhşətli dərəcədə az deyil. Əslində sərf normasının şişirdilməsi hesabına əhali bazar tələblərinə uyğun supulu ödəyir. Bu maxinasiyalardan ən ciddi zərbə dövlətin xəzinəsinə və əhalinin cibinə deyir.

Bakıda su sayğıclarının quraşdırılması işi sürətləndirilməlidir. Yalnız bu yolla su sərfinə ciddi nəzarət etmək olar. Sayğacların bahalığı və əhalinin alıcılıq qabiliyyətinin aşağa olması hələlik sayğaclarla su istifadəsinə nəzarəti cətinləşdirir. Amma əhali bir şeyi başa düşməlidir ki, sayğacın quraşdırılmasına verdiyi 10-15 «şirvan»ın hesabına onu kim aldada bilməyəcək və suya artıq pul ödəməyəcək. Bir ailə sayğaca çəkdiyi xərci il ərzində suya verdiyi artıq pulları qənaət etməklə çıxarda bilər.

Yazı müsabiqəyə təqdim olunur